**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**«Təsdiq edirəm»**
**filologiya fakültəsinin dekanı**
**fil.f.d. E.H.Məmmədov**
**8 dekabr 2016**

**Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının**
**elmi-tədqiqat işlərinin yerinə yetirilməsi haqqında**

# H E S A B A T I

**BAKI – 2016**

## 1. GİRİŞ.

Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müəllimləri dərs yükü ilə yanaşı, hər il elmi-tədqiqat işlərini yerinə yetirirlər. Həmin elmi işlər Azərbaycan folklorunun aktual problemləri üzrə üçillik plan şəklində müəllimlər arasında bölünmüşdür. Bölüşdürülmə aşağıdakı strukturu əhatə edir.

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ:

1. S.H.Orucova – fil.e.d, professor – 1971-ci ildə anadan olmuşdur
2. N.Q.Xəlilov – fil.e.d., professor – 1949-ci ildə anadan olmuşdur
3. E.Ə.Talıblı – fil.f.d., dosent – 1958-ci ildə anadan olmuşdur
4. M.M.Məmmədov – fil.f.d., dosent – 1963-cü ildə anadan olmuşdur
5. K.F.İslamzadə – fil.f.d., dosent – 1967-ci ildə anadan olmuşdur
6. Ü.A.Nəbiyeva – fil.e.d., dosent – 1974-cü ildə anadan olmuşdur
7. K.K.Həsənova – fil.f.d., 0,5 ştat – 1976-cı ildə anadan olmuşdur
8. B.H.Əsgərov – fil.f.d., 0,5 ştat əvəzçi – 1981-ci ildə anadan olmuşdur
9. G.E.Axundova – böyük laborant, 0,5 ştat – 1988-ci ildə anadan olmuşdur

## 3. KAFEDRALARDA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI, YERİNƏ YETİRİLMƏSİ.

2016-cı ildə Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının əməkdaşları **«Azərbaycan epik folklorunun janrları və onların xüsusiyyətləri»** adlı ümumi üçillik problemin 7 mövzusu – üzərində çalışıblar.

Planlaşdırılmış mövzulardan aşağıdakılar yerinə yetirilmişdir:

**İş «A»: «Azərbaycan folklorunun epik növün janrları»**

İcraçı: **prof. S.H.Orucova**

Mərhələ II: « **Azərbaycan atalar sözü və məsəllərinin xüsusiyyətləri** »

Atalar sözü və məsəllər xalqın tarixən sınaqdan çıxardığı müşahidələrin bədii ifadəsidir. Formaca kiçik, lakin məzmun çalarına malik olan bu janrın özünəməxsus tələbləri vardır. Atalar sözləri xalqın həyatda sınanmış, müdrik və nəsihətli fikirlərindən ibarət olur və böyük əxlaqi-tərbiyəvi əhəmiyyət daşıyır. Əsas xüsusiyyəti həcmcə kiçikliyi, lakin mənaca hikmətli və nəsihətli olmasıdır. Məsəllər yığcamlığına və hikmətli məzmununa görə atalar sözlərinə oxşasa da, ondan fərqlənir. Atalar sözlərindən fərqli olaraq, məsəllərdə fikir bitkin olmur və müstəqil işlənə bilmir. Məsəl müəyyən bir hadisə və lətifə ilə bağlı olur və məzmunu yalnız müəyyən izahatdan sonra aydınlaşır. Məsələn: “Sən çaldın”, “Qələt yağ küpəsindədir” məsəlləri Molla Nəsrəddin lətifələri ilə bağlıdır.

Atalar sözündə hökm qətidir. Məsəllərdə isə fikir şaxəliyi nəzərə çarpır. Hökm təsdiqlənir, lakin o qəti deyildir. Atalar sözləri məsəllərə çevrildiyi kimi, məsəl də rəvayətlər, lətifələr tərkibində yaşaya-yaşaya atalar sözünə çevrilə bilir.

Xalq arasında atalar sözləri və məsəllər qanadlı sözlər, ibrətamiz ifadələr və başqa adlar altında yayılmışdır. Onların ən qədim nümunələrinə Orxon-Yenisey kitabələrində, türk eposunda, eləcə də dini poeziyanın mərsiyə, növhə, ağı və b. nümunələrdə rast gəlinir. Atalar sözləri və məsəllər ən qədim janrlardır. Bu janr öz mənşəyini erkən icma dövründən alır. Atalar sözləri və məsəllərin bir qisminin yer aldığı “Kitabi-Dədə Qorqud”, “Oğuznamə”, “Əmsali-türkani” və b. mənbələr buna yaxşı nümunədir.

Atalar sözü və məsəllərin şifahi dildən yazıya alınmasının tarixi isə o qədər də əzəl deyildir. Bəzi tədqiqatçılar bu tarixin Azərbaycanda milli mətbuatın yaranma dövründən sonra başladığını göstərirlər. Atalar sözü və məsəllərin nəşri sahəsində SMOMPK məcmuəsi böyük işlər görmüşdür. Həmçinin, rus dilinə tərcümə edilmişdir. Atalar sözü və məsəlləri ilk dəfə küll halında M.V.Qəmərlinski 1899-cu ildə nəşr etmişdir. Azərbaycanda atalar sözü və məsəllərin folklorşünaslıq

baxımından öyrənilməsinin ilk elmi-nəzəri istiqaməti İdris İbrahimovun adı ilə bağlıdır. Bundan sonrakı illərdə P.Əfəndiyev, Vaqif Vəliyev, Əli Saləddin, Ayaz Cəfərov, Gəray Yusifov və b. atalar sözü və məsəllər barədə maraqlı məqalələr yazmışlar.

Verilən təsnifatlarda atalar sözü və məsəllərin aşağıdakı cəhətləri diqqət mərkəzində olmuşdur:

I. Atalar sözü və məsəllərin məzmun və ideyasına həqiqi və məcazi mənasına görə qruplaşdırılması daha doğru tədqiqat metodu hesab edilmişdir.

II. Çoxmənalı atalar sözü və məsəllərin daha qabarıq mənalarına görə təsnif edilməsinin zəruriliyi qeyd edilib. Aşağıdakı kimi təsnif olunur:

A) Əmək haqqında

B) Vətən, dostluq və sədaqət haqqında

C) Əxlaq-tərbiyə, məhəbbət və gözəllik haqqında

Ç) Zülm, ədalət və qadın hüquqsuzluğu

Azərbaycan atalar sözü və məsəllərinin spesifik xüsusiyyətləri tədqiqata cəlb etməyə daha geniş imkan yaradır.

**İş «B»: « XIX-XX yüzilliklərdə aşıq poeziyası və yazılı ədəbiyyat »**

İcraçı: **prof. N.Q.Xəlilov**

Mərhələ II: **«XX əsrin ortalarında (1970-1980) aşıq poeziyası və yazılı ədəbiyyat»**

Aşıq yaradıcılığı və yazılı poeziya əsrlər boyu paralel şəkildə inkişaf etmişdir. Biri digərinə təsir etmiş və zənginləşmişdir. Xüsusilə, XIX və XX yüzilliklərdə bu təsvir daha da güclənmişdir. Hətta bu yüzilliklərdə elə sənətkarlar olmuşdur ki, onların şeirləri aşıqlar tərəfindən məclislərdə ifa etmişdir. Bu cəhətdən XX əsrdə S.Vurğunun, O.Sarıvəllinin, H.Arifin və başqalarının yaradıcılığını misal göstərmək olar.

Burada biz xüsusilə O.Sarıvəlli və H.Arifin aşıq poeziyası üslubunda yazılmış şeirlərinə nəzər yetirmişik. Adı şəkilən bu şairlər aşıq poeziyasından bəhrələnməklə bərabər, eyni zamanda aşıq yaradıcılığı haqqında qiymətli fikirlər söyləmişdilər.

H.Arif Aşıq Alının yaradıcılığını toplamış, nəşr etdirmişdir. O.Sarıvəlli M.P.Vaqifin və Aşıq Ələsgərin yaradıcılığından ruhlanaraq bir çox qoşma və gəraylı yazmışdır. O.Sarıvəlli eyni zamanda, öz dövründə yaşamış bir sıra aşıqlarla duz-çörək kəsmiş, onların yaradıcılığından bəhrələnmişdir.

Bir həqiqəti demək lazımdır ki, O.Sarıvəlli ədəbi fəaliyyətində bir tərəfdən aşıq yaradıcılığı barədə elmi-nəzəri mülahizələr irəli sürmüş, vacib məsələlər qaldırmış, öz fikirlərini böyük yanğı hissi ilə ümumiləşdirmiş,Ş digər tərəfdən aşıq poeziyasının forma və məzmun ənənələrini mənimsəmiş və tətbiq emişdir. O.Sarıvəlli öz nəzəri fikirlərini aşıqların II və III qurultaylarında söyləmişdir.

Tədqiqat işi bu istiqamətdə ümumiləşdirilmişdir.

**İş «C»: « XX əsr dünya folklorşünaslığı tarixi»**

İcraçı: **dosent E.Ə.Talıblı**

Mərhələ II: **« Azərbaycan lətifələrinin nəşr və tədqiq tarixi»**

Azərbaycan folklorunun çox zəngin janrlarından biri olan lətifə janrının poetikasının epik folklor və xalq gülüşü mədəniyyəti kontekstində öyrənilməsi zərurəti onun nəşr və tədqiq tarixinin araşdırılmasını da aktuallaşdırır. Elmi tədqiqat işimiz bu mövzuya həsr olunmuşdur. Azərbaycan lətifələrinin sırasında Molla Nəsrəddinin adı ilə bağlı lətifələr mühüm yer tutur. XIX əsr rus dilli mətbuatda bu lətifələrin nəşrinə başlansa da, əsas nəşrlər XX əsrdə meydana çıxmışdır. XX əsrdə Azərbaycan lətifələrinin nəşr və tədqiqini araşdırmada üç mərhələyə ayırmışıq: XX əsrin əvvəlləri; 1920-1940-cı illər; 1950-1990-cı illər. Hər mərhələdə görülən işlər dəyərləndirilmiş və ümumiləşdirilmiş, mərhələnin elmi səciyyəsi verilmişdir. Elmi-tədqiqat işində lətifələrin Ə.Müznib, M.Təhmasib, Y.Məmmədov, N.Seyidov, B.Abdulla və b. tərəfindən hazırlanan nəşrləri; H.Zeynallı, M.Təhmasib, T.Fərzəliyev və başqa folklorşünasların lətifə janrı ilə bağlı mülahizələri elmi-tənqidi şəkildə təhlilə cəlb edilmişdir. Nəticədə Azərbaycan lətifəşünaslığının XX əsrdə keçdiyi inkişaf yolu ümumiləşdirilmiş, qarşıda duran əsas elmi vəzifələri müəyyənləşdirilmişdir.

**İş «Ç»: « Azərbaycan mifik təfəkküründə kultlar (ağac, dağ, Su, Boz qurd)»**

İcraçı: **dosent M.M.Məmmədov**

Mərhələ II: «**Azərbaycan mifik təfəkküründə kultlar (ağac, dağ, Su, Boz qurd)»**

Mifopoetik dünya modelində kosmik nizamın bütün parametrlərini özündə əks etdirən dağ dünyanın tam mərkəzində ucalan sakral güc qaynağıdır və ulu başlanğıc, kök, soyun əsası, ana yurdun rəmzi kimi qavranılır. Dağ mifoloji simvolikasına görə əski düşüncədə doğum yeri kimi mağara – gor-beşiklə bir semantik cərgə yaradır." Dədə Qorqud kitabı"nda oğuzlar hiss və duyğulardan yoğrulubmuş kimi dağlarla danışır, dağlara dua edir, and içir, salam verirlər.Türk mifoloji düşüncəsində dağların çoxu "müqəddəs, ulu əcdad, ulu xaqan" anlamını verən Xan Tanrı, Buztağ Ata, Bayın Ula və s. adlarla bilinir. Şamanizmdə dağlar ik çağlarda " dağ ruhları " kimi mistik və mənəvi gücləri olan ,bu üzdən də hiss və duyğularla yoğrulan varlıqlar kimi düşünülmüşdür. Mifoloji düşüncədə yurdu rəmzləndirən dağ həm də torpaq hamisi, yurdun qoruyucusu idi. Şamanların hami ruhları sırasına keçmiş dağ ruhunun kor olduğuna dair təsəvvürlərin geniş yayılmasını "Koroğlu" dastanında Alı kişinin timsalında görürük.

Elmi işdə su türk mifoloji dünya modelində əbədi başlanğıc olan xaosu bildirən və eləcə də yaradılış aktında iştirak edən strukturyaradıcı bir mofologem kimi araşdırılır.İlkin xaos olan suyun yaradıcı başlanğıc kimi dirilik vermə, əbədi yaşatma, ölümsüzlük bəxş etmə əlməti Dirilik suyunda saxlanılmışdır. Su bir yandan kainatın ilkin yaradıcı başlanğıcında dayanan universal obrazdırsa, digər tərəfdən kosmik kataklizmlər də, ölüm hadisəsi də onunla əlaqəlidir. Dünyanın yaranması ilə bağlı olan kosmoqonik miflərdə Tanrının birinci olaraq dəryanı , suları yaratdığı söylənilir.Struktursuz ilkin su stixiyasının lil elənib sonra ondan torpaq parçasının yaradılması miflərdə xaosun kosmosa çevrilməsinin ən gərəkli aktı kimi çıxış edir. Qorqud Atanın "suya əcəl gəlməz " – deyib ölümsüz bir yer

axtararkən suların üstünü seçməsinin mifopoetik düşüncə öz yozumu var və o, yenə də suyun həm də kosmoqoniya aktı ilə bağlılığı baxımından mənalıdır. Su stixiyasının mifoloji Ulu Ana ilə eyniləşdirilməsi səbəbindən o, ölüm motivi ilə yanaşı doğum, artım və ölümsüzlük mifologemini özünü birləşdirir.

Elmi işdə göstərilir ki, “ Bay terek”, “Temir kavak” və ya “Həyat (Dünya) ağacı “ deyilən mübarək üzlü “Övliya ağac” inanışına tək bir türk mifologiyasında deyil, dünya xalqlarının bir çoxunun mifoloji sistemlərində rast gəlinir. Mifoloji çağ türk düşüncəsində müqəddəs, “Övliya ağac” Tanrıya qovuşmağın yoludur. Ağac türk düşüncəsində Tanrının ilahi vəsflərinin maddi dünyadakı simvolu halına gəlmiş , bir sözlə, O-nu rəmzlndirmişdir. Tək və bənzərsiz olması,ölümsüzlüyü rəmzləndirməsi, sığınılacaq yer olması və s. kimi vəsflər başlıca olaraq Ulu Göy Tanrının daşıdığı vəsflərdir. Türk xalqlarının ənənəvi dünya görüşlərində ağac insanların bir-biriylə, təbiətlə cəmiyyətin bağlılığının bir rəmzi ifadəsidir. Kosmik müqəddəs ağac kainatın hər üç qatını- göy, yer və yeraltı dünyaları bir-birinə bağlayırdı. Şamanist türklər qayın ağacını müqəddəs bilmiş, torpağın ruhunun onda olduğuna inanmışlar. Azərbaycan dekorativ – tətbiqi sənət nümunələrində ağac artım, həyatın başlanğıcı ideyasının rəmzi kimi mərkəzi yer tutur.

**İş «D»: «Peşəkar təhkiyəçilik ənənəsinin epik janrlarda özünəməxsusluğu»**

İcraçı: **dosent K.F.İslamzadə**

Mərhələ II: **« Folklorda etnosun miqrasiyasının əksi»**

Hər bir xalq öz keçmişində baş vermiş əhəmiyyətli hadisələri folklorunda qeydə alır. Həm də bu, tarixin salnamə şəklində əksi olmayıb, onun dünya epik modelinə uyğunlaşdırılması formasında təzahür edir. Yüzlərlə süjet və motiv arasında özünə yer tutan miqrasiya ilə bağlı motivlər adətən folklor nümunələrində fon, hadisələrin baş verdiyi şəraitin təsviri kimi çıxış edir. Miqrasiyanın səbəbi kimi obyektiv və ya subyektiv olaraq landşaftın dəyişməsi, zəngin ovlaq və münbit torpaq axtarışları, düşmən basqını nəticəsində əvvəlki ərazilərin itirilməsi, yaxud əksinə, tayfanın hücum edərək yeni torpaqları fəth etməsi göstərilə bilər. Elmi işdə

o da vurğulanmışdır ki, miqrasiyalar çox zaman birtərəfli istiqamətdə olmayıb, müəyyən müddət keçdikdən sonra tayfanın öz köhnə vətəninə qayıtmasını ehtiva edir. Bəzi nümunələrdə geri dönmənin gerçəkləşməsi də göstərildiyi halda, digərlərində bu, bir arzu şəklində yaşayır.

Elmi işdə yuxarıda göstərilən hər bir səbəbin doğurduğu miqrasiyanı özündə əks etdirən nümunələr üzərində təhlil aparılmışdır. Bunlardan uyğur türklərinin «Köç» dastanını (Kutlu dağın çinlilər tərəfindən dağıdılıb daşınması nəticəsində landşaftın dəyişməsi), «Şu» dastanını (Makedoniyalı İsgəndərin hücumu nəticəsində türklərin Balasaqunu tərk etmələri, İsgəndər getdikdən sonra isə geri qayıtmaları), «Kitabi-Dədə Qorqud» dastanını (yağıların qəfil basqını zamanı yurdunu tərk edən oğuzlardan Aruzun körpə oğlunun itməsi, şir tərəfindən bəslənilməsi, müəyyən əyyamdan sonra Oğuzun geri dönməsi), «Ərgənəkon» dastanını (digər türk tayfaları tərəfindən məğlubiyyətə uğradılıb yox edilən moğollardan iki ailənin dar cığırla dağın əlçatmaz yerində yurd salması, zamanla əhalinin və mal-qaranın sayının artması, otlaqların çatışmaması səbəbi ilə bir gün təsadüfən yol tapıb Ərgənəkondan keçmiş vətənlərinə köçməsi) misal çəkmək olar.

**İş «E»: «Kitabi-Dədə Qorqud»un şifahi nitqdən yazıya keçməsi və ilkin mətnlər»**

İcraçı: **dosent Ü.A.Nəbiyeva**

Mərhələ II: **«“Kitabi-Dədə Qorqud”da cəngavərlik və qəhrəmanlıq ənənələri»**

Oğuz eposunun ümumi məzmun çevrəsində mühüm yer tutan, demək olar ki, bütün eposdan qızıl xətt kimi keçən, ümumtürk eposunda əks olunan süjetlərdən biri də cəngavərlik ənənələri ilə bağlı olanlardır. Bu, təkcə «Kitabi-Dədə Qorqud» üçün yox, ümumtürk eposu üçün baş və ana süjetdir. Təsvir edilən hadisələrin böyük qismi bilavasitə türk qəhrəmanlıq və alplıq ənənəsinin qüdrətini sonrakı nəsillərə çatdırmaqda, epik düşüncənin ana xətti olaraq qalmaqdadır. Oğuz eposunun baş qəhrəmanı xalq olduğu kimi, onun formalaşma və inkişaf tarixinin ən yaddaqalan

səhifələri də oğuz qəhrəmanlığının cəngavərlik tarixi ilə sıx bağlıdır . Bu ənənələr türk eposunu təkcə gözəlləşdirmir, onun epik yaddaşdakı yerini əbədiləşdirir. Eyni zamanda türk qəhrəmanlığının məzmun mahiyyətini, onların tarixin çətin dönəmindəki durumunu, mədəni dəyərləri, yüksək əxlaqi keyfiyyətləri formalaşdırmaq, bir sıra başqa milli-mənəvi, etik-estetik və əxlaqi dəyərləri öyrənmək cəhətdən önəmlidir.

Eposda cəngavərlik ənənələrinin hüdudu genişdir. Bu, xüsusi bir mahiyyət daşıyıb, ümumilikdə türk qövmünün, həyat yə yaşayışının qorunmasına xidmət edir. Tarixin müxtəlif mərhələlərində yaranan, özünü təsdiqləyən, müəyyən coğrafi məkana yiyələnən, yaxud bu məkanı məskunlaşdıran, onu abad edən, oğuz elinin maddi-mənəvi şərəfini qorumağa borclu olan bu cəngavərlik ənənəsi özü də birdən-birə yaranıb formalaşmamışdır. Zaman-zaman türkün gündəlik həyat təcrübəsində formalaşmış, onun mənəvi dəyərlərinin birləşməsində meydana çıxıb inkişaf etmişdir. Cəngavərlik həyatı çevrəsini şərti olaraq belə ümumiləşdirmək olar: Oğuz eli qəhrəman, cəngavər formalaşdıran bir mühitə malikdir.

**İş «Ə»: «Kitabi-Dədə Qorqud» un öyrənilmə tarixi**

İcraçı: **fil.f.d. K.K.Həsənova**

Mərhələ II: **«“Kitabi-Dədə Qorqud” dünya tədqiqatında»**

Dünya miqyasında tədqiq edilən ədəbi abidələrdən biri “Kitabi-Dədə Qorqud”dur. Bu tədqiq və araşdırmanın 200 ildən artıq bir tarixi vardır.

Müqəddimə və 12 boydan ibarət bütöv əlyazması Drezden kitabxanasında, altı boydan ibarət ikinci nüsxəsi isə Vatikan kitabxanasında saxlanılan kitabin ilk səhifəsində ərəbcə “Kitabi-Dədəm Qorqud, əla lisani-taifeyi-oğuzan” (Oğuzlar tayfasının dilində “Dədəm Qorqudun kitabı”) yazıldığına görə elm aləmində həmin adla məşhur olmuşdur.

XVIII əsrin 70-ci illərində “Kitabi-Dədə Qorqud” eposunu ilk dəfə qeydə alan alman şərqşünası Y.İ.Reyske, tədqiqatçıların diqqətini bu abidəyə yönəldən isə F.Dits olmuşdur.

Böyük Azərbaycan alimi H.Araslı göstərirdi ki, “Dədə Qorqud” kitabının nəşri

XIX əsrdən başlamışdır. İlk dəfə əsər üzərində tədqiqat aparan alman alimi Dits "Təpəgöz" boyunu 1815-ci ildə alman dilinə tərcüməsi ilə birlikdə nəşr etdirmişdir. Ditsdən sonra məşhur şərqşünas Nyoldek bu əsəri bütünlükdə, nəşr etmək istəmişsə də, akademik Bartoldun verdiyi məlumata görə çox yerini düzgün oxuya bilmədiyindən hazırladığı işi yarımçıq qoymuşdur. 1894-cü ildə Bartold əsərin boylarını rusca tərcüməsi ilə birlikdə nəşrə başlamışdır.

Tədqiqat işi bu istiqamətdə ümumiləşdirilmişdir.

## 4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI.

Dərc olunmuş elmi işlərin (məqalə, tezis), monoqrafiyaların, dərslik və dərs vəsaitləri haqqında məlumat

### Kitablar:

**Dosent E.Ə.Talıblı:**

1. Orfoqrafiya-orfoepiya lüğəti. Təkmilləşdirilmiş VI nəşr. Bakı, TQDK nəşri, 2016, 224 səh, 16 ç.v. (həmmüəlliflərlə birlikdə)

### Rəsmi opponentlik:

**Prof. S.H.Orucova:**

1. Fərəh Cabbar qızı Cəlil. Türk və Skandinav eposlarının müqayisəli tipologiyası. 10.01.09– Folklorşünaslıq, filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Bakı, 2016

**Prof.N.Q.Xəlilov:**

2. Aynurə Sadiq qızı Səfərova. Neftçala-Salyan folklor mühiti. 10.01.09– Folklorşünaslıq, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Bakı, 2016

**Dosent E.Ə.Talıblı:**

1. Nazim Rzayev. Azərbaycan meyxanalarının janr xüsusiyyətləri. 10.01.09– Folklorşünaslıq, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Bakı, 2016

2. Şəhla Hüseynli. Azərbaycan folklorunda epik formulların semantik-funksional xüsusiyyətləri. 10.01.09– Folklorşünaslıq, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Bakı, 2016

**Proqramlar:**

**Dos.K.F.İslamzadə:**

1. Folklor poetikası. (Magistratura təhsil pilləsi üçün proqram). Bakı, Bakı Universiteti nəşriyyatı, 2016, 1,5 ç.v.

2. Azərbaycan xalq poeziyasında yeddi hecalı şeir şəkli. (Magistratura təhsil pilləsi üçün proqram). Bakı, Bakı Universiteti nəşriyyatı, 2016, 1 ç.v.

**Fil.e.d.Ü.A.Nəbiyeva:**

1. Mərasim və uşaq folkloru. Magistratura təhsil pilləsi üçün fənn proqramı. Bakı, 2016, 2,1 ç.v.
2. Aşıq şeirinin poetikası. Magistratura təhsil pilləsi üçün fənn proqramı Bakı, 2016, 1,5 ç.v.

**Dos.M.M.Məmmədov:**

**1.** Qədim dünya mifləri. (Magistratura təhsil pilləsi üçün proqram). Bakı, Bakı Universiteti nəşriyyatı, 2016, 2 ç.v.

2. Azərbaycan və dünya xalqlarının nağılları. (Magistratura təhsil pilləsi üçün proqram). Bakı, Bakı Universiteti nəşriyyatı, 2016, 1, 5 ç.v.

**Məqalələr:**

**Prof. S.H.Orucova:**

1. Mahmud bəy Mahmudbəyovun SMOMPK məcmuəsindəki rolu / Bakı Dövlət Universitetində "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan

olmasının 93-cü ildönümünə həsr olunmuş Filologiyanın aktual problemləri" Respublika Elmi-nəzəri Konfransın materialları. Bakı:2016, s.29-33

2. Uşaq oyunları SMOMPK məcmuəsində / AMEA-nın Folklor İnstitutunun "İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları" Beynəlxalq Elmi Konfransın materialları. Bakı:2016, s.248-252

3. "Kitabi-Dədə Qorqud" dastanında ağı janrı //"Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal. Bakı:2016, s.224-226

4. SMOMPK məcmuəsində ağı janrının toplanması, tərcüməsi və nəşri // "Filologiya məsələləri", N10, Bakı:2016, s.177-182.

5. Azərbaycan folklorunda vəsfi-hal janrı və tərcümə problemi/Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş "Müasir Türkologiya: Dünən, Bu gün və sabah (problemlər və perspektivlər)" Bakı:2016, s.49-56

6. Azərbaycan folklorunda nağıl janrı /Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər elmi-nəzəri jurnal, N6 (1), Bakı:2016, s.6-9

**Professor N.Q.Xəlilov:**

1. Aşıq poeziyasının M.V.Vidadi yaradıcılığında poetik ənənələri / Filologiyanın aktual problemləri. Ümummilli lider H.Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 18-19 may, 2016-ci il, s. 26-29

**Dosent E.Ə.Talıblı**

1. Test tapşırığı nümunələri / Azərbaycan dili (I və IV qruplar üçün). - "Abituriyent", jurnalı, 2016, №1, s.125-127

2. Bəzi test tapşırıqlarının izahı və tövsiyələr / Azərbaycan dili. – "Abituriyent", jurnalı, 2016, №2, s.34-38 (həmmüəlliflərlə birlikdə)

**Dosent M.M.Məmmədov:**

1. Türkü türkə tanıtdıran kitab: N.Tağısoyun "Qaraqalpaq ədəbiyyatı" kitabı haqqında mülahizələr / Müasir türkologiya: dünən,bu gün və sabah (problemlər və perspektivlər)" mövzusunda Respublika Elmi konfransının materialları. 2016. Bakı: BDU, s.209-217
2. Əski türk dini və şamanizm // Dil və ədəbiyyat –Elmi- nəzəri jurnal 4(100) Bakı, 2016, s. 325-327

**Dosent K.F.İslamzadə:**

1. "İnşaat qurbanı" mərasimi və eyniadlı folklor süjeti // "Dədə Qorqud" jurnalı, №3, 2015, 1 ç.v.

**Dosent Ü.A.Nəbiyeva:**

1. Türk dünyasında "Kitabi-Dədə Qorqud"u tanıdan əlyazma / Birinci türkoloji qurultayın 90 illiyinə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı 2016, s. 220-225
2. "Kitabi- Dədə Qorqud" da idarəçilik sistemi / Birinci türkoloji qurultayın 90 illiyinə həsr olunmuş Respublika elmi konfransının mat-rı, Bakı, 2016, s .242-247
3. Ümumxalq bayramı Novruz // Dil və ədəbiyyat –Elmi- nəzəri jurnal 4(100) Bakı, 2016, s. 212-214

**Fil.f.d. K.K.Həsənova:**

1. «Kitabi-Dədə Qorqud» boylarında arxaik süjetlər. Dil və ədəbiyyat –Elmi- nəzəri jurnal 4(100) Bakı, 2016, s. 233-235

**Kitablara rəy:**

**Dos.E.Ə.Talıblı:**

1. Möhsün Nəzərli. Azərbaycan torpağında (şeirlər kitabı). Bakı, "Gənclik", 2015, səh.3-5

2. Hikmət Quliyev. Müdrik qoca arxetipinin semantik strukturu və paradiqmaları. B.: "Elm və təhsil", 2016, 216 səh.

**Dos.K.F.İslamzadə:**

1.Səfa Qarayevin «Mifoloji xaos: strukturu və poetikası» kitabı. Bakı,2016

**Fil.e.d. Ü.A.Nəbiyeva:**

1.Almas Həsənqızı. Folklorşünaslığa giriş. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2015, 260 s.

## 5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ:

5.1. Respublikadaxili qrantlar – yoxdur 5.2. Beynəlxalq qrantlar – yoxdur

## 6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR

Kafedra üzvləri AMEA-nın tədbirlərində fəal iştirak edir. Prof.S.H.Orucova AMEA-nın Folklor İnstitutunun "İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları" Beynəlxalq Elmi Konfransında iştirak etmişdir. Kafedranın müdiri prof. S.H.Orucova AMEA-nın Folklor İnstitutunun Müdafiə Şurasının, prof.N.Q.Xəlilov və fil.f.d.K.K.Həsənova Seminar Şurasının üzvüdür.

## 7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR.

*7.1.Elmi-texniki əməkdaşlıq.*

Azərbaycan Şifahi xalq ədəbiyyatı kafedrasının Qırğızıstan Elmlər Akademiyası və Qırğızıstan Dövlət Universiteti ilə birgə elmi fəaliyyəti mövcuddur. Belə ki, Kafedranın doktorantı Jalə Xəlilovanın ikinci elmi rəhbəri Qırğızıstan Respublikası Elmlər Akademiyasının vitse prezidenti və Dil və Ədəbiyyat İnstitutunun direktoru A.Akmataliyev, dissertantı Gülarə Quluzadənin ikinci elmi rəhbəri Qırğızıstan

Dövlət Universitetinin professoru Jıldız Kalmaşevna Orozobekovadır. 2016-cı ilin sentyabrın 15-də Türkiyənin Xalq Mədəniyyəti Araşdırmaları Qurumunun sədri, professor İrfan Nəsrəddinoğlu ilə də görüş olmuş və əlaqələr yaradılmışdır. Rusiyadan professor Uldanay Baxtikiriyeva Özbəkistan Elmlər Akademiyası Dil və Ədəbiyyat İnstitutunun direktoru professor Tura Mirzoyev, Gürcüstan Ədəbiyyat İnstitutunun direktoru professor İrma Ratiani, "Milli folklor" jurnalının baş redaktoru professor Ocal Oğuz, Türkoloji Araşdırmalar Mərkəzinin müdiri fil.f.d. Seyfəddin Altaylı ilə də elmi əlaqələr qurulmuşdur.

*7.2. Beynəlxalq konfranslarda, konqreslərdə və simpoziumlarda iştirak:*

Prof. S.H.Orucova Moskvada keçirilən «Современные проблемы тюркологии: язык – литература – культура» və «Билингвизм и билингвальное образование в россии и мире: современные тенденции» Beynəlxalq elmi konfransında iştirak etmişdir

**Prof. S.H.Orucova:**

1. Жанр дастан у тюркоязычных народов / «Современные проблемы тюркологии: язык – литература – культура» 17-18 ноября, РУДН, Beynəlxalq Elmi Konfransın materialları. Moskva, 2016
2. Жанры Азербайджанского фольклора на русском языке/«Билингвизм и билингвальное образование в россии и мире: современные тенденции» Beynəlxalq Elmi Konfransın materialları. Moskva, 2016

**Dosent K.F.İslamzadə:**

1. The social- historical roots and psychological aspects of the international plot "Killing of the Old". // Papers on language and literature/ vol. 22. №8, 2015. p.208-219 USA. Southern Illinois University. 1 ç.v. (A kateqoriyalı)
2. Об-общественно-исторической и этнографической интерпретации традиционного сюжета «Три брата» (на основе азербайджанских и русских

сказок). //Вестник Московского Государственного Гуманитарного Университета (МГГУ) имени М.И.Шолохова, №2, 2016, 1 ç.v.

## 8. ELMİ-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ

*8.1. Dövlət və özəl strukturlarda tətbiq olunmuş elmi nəticələr:*

Professor S.H.Orucovanın "Azərbaycan folklorunun rus dilinə tərcümə probleminin özünəməxsusluğu" adlı kitabı bakalavr təhsil pilləsinin "Azərbaycan şifahi xalq ədəbiyyatı" fənninin rus bölmələrində tədrisində, eyni zamanda "Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri" kitabı bakalavr və magistratura pilləsində dərs vəsaiti kimi istifadə olunur. Professor S.H.Orucovanın elmi redaktorluğu ilə çap olunan "Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü" mövzusunda Respublika elmi konfransının materialları və "Kitabi-Dədə Qorqud və Türk dünyası" mövzusunda Beynəlxalq elmi konfransın materialları magistratura təhsil pilləsində istifadə olunur. Professor N.Q.Xəlilovun "Heca vəzni və aşıq sənətinin yaranma tarixi" və fil.e.d. Ü.A.Nəbiyevanın Türk epik ənənəsində "Dədə Qorqud" kitablarından filologiya fakültəsinin magistr təhsil pilləsinin "Azərbaycan aşıq yaradıcılığı", "Kitabi-Dədə Qorqud" və dünya eposu", "Azərbaycan aşıq şeirinin növ və şəkilləri" və bakalavr təhsil pilləsinin "Azərbaycan dastanları" fənlərinin tədrisində dərs vəsaiti kimi istifadə olunur.

*8.2. Təhsildə elmi-tədqiqat işlərinin nəticələrinin və informasiya texnologiyasının tətbiqi. Elmi-tədqiqat işlərinin səmərəliliyi:*

Elmi-tədqiqat işlərinin nəticələrindən isə magistratura bölməsində mühazirə mətnləri və dərs vəsaitləri kimi istifadə olunur.

*8.3. İstehsalatda tətbiq üçün hazır olan texnologiyalar haqqında məlumat – yoxdur.*

**9. PATENT VƏ İNFORMASİYA İŞLƏRİ –** yoxdur.

## 10. DÖVLƏT PROQRAMLARININ İCRASI:

10.1 «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı»:

Kafedrada icra olunan elmi işlər və müdafiə üçün hazırlanan fəlsəfə doktoru və elmlər doktoru dissertasiyaları 2016-2020-ci illərdə Elmin İnkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının yerinə yetirilməsi istiqamətində verilən töhfələrdir. Bu işlərin əhatə etdiyi mövzular folklorşünaslıqda ağ ləkələrin yerinin doldurulmasına, aktual problemlərin tədqiqata cəlb olunmasına hesablanmışdır. Dövlətin yürütdüyü mədəniyyətlərarası dialoq, inteqrasiya və qloballaşma siyasətinin ədəbiyyatşünaslıqda öz əksini tapması ilə bağlı kafedrada komparativistika (müqayisəli ədəbiyyatşünaslıq) yönlü tədqiqatlar aparılır. Həmçinin YUNESKO-nun dünya xalqlarının qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Novruz bayramı, aşıq yaradıcılığı və Çövkan oyunu mövzuları da əsas tədqiqat istiqamətləri sırasındadır.

**10.2.“Multikulturalizm ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Bu sərəncama əsasən, “**Azərbaycan ədəbiyyatında multikulturalizmin təzahürləri**” mövzusunda magistrların elmi seminarları təşkil edilmişdir.

## 11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI

Kafedra fakültədə keçirilmiş elmi konfranslarda, simpozium və seminarlarda fəal iştirak edir. Kafedra 2016-cı ilin 19 aprel, 10 may, 20 dekabr tarixlərində “**Azərbaycan ədəbiyyatında multikulturalizmin təzahürləri**”, “ **Heydər Əliyev və folklor** ”, **“Azərbaycan xalq mahnıları”** mövzusunda magistrların elmi seminarlarını, Novruz bayramlarını, eləcə də folklorla bağlı viktorina və sərgilərini

təşkil etmişdir. Həmçinin, filologiya üzrə elmlər doktoru, professor Nizami Tağısoyun “Qaraqalpaq ədəbiyyatı” kitabının Respublikanın digər tanınmış alim, folklorşünas və ədəbiyyatşünasları ilə birlikdə təqdimat mərasimini keçirmişdir. «Filologiyanın aktual problemləri» adlı Respublika elmi-nəzəri konfransı kafedranın professoru N.Q.Xəlilovun təşkilatçılığı ilə təşkil olunmuşdur. Ümumi olaraq, kafedra müdiri prof.S.H.Orucova fakültədə keçirilən 3 konfransın (3 respublika) təşkilat komitəsinin üzvüdür.

## 12. FAKÜLTƏDƏ ELMİ VƏ ELMİ-PEDAQOJİ KADRLARIN HAZIRLANMASI

Kafedra elmi və elmi-pedaqoji kadrların hazırlanmasında fəal iştirak edir. 4 nəfər əyani: Rəsulova Rəbiyyə, Hümbətli Şəms, Burtiyeva Məryəm, İsmiyeva Leyla, 2 nəfər qiyabi: Həsənova Ülviyyə, Xıdırlı Günel magistr dərəcəsinə layiq görülmüşdür. Hazırda altı magistr təhsilini davam etdirir.

Kafedranın filologiya üzrə fəlsəfə doktoru proqramı üzrə iki doktorantı və bir dissertantı, filologiya üzrə elmlər doktoru proqramı üzrə isə dörd dokrotantı var. Cari ildə Gülarə Quluzadə filologiya üzrə fəlsəfə doktoru proqramı üzrə dissertanturaya, Könül Həsənova isə filologiya üzrə elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul olmuşdur.

Tələbələrin elmi-tədqiqat işlərinə marağın artırılması məqsədilə II kurs tələbələri Soltanov Elnur Asim oğlu "Azərbaycan nağıllarında at”, Əliyeva Səidə Sahib qızı "Azərbaycanda toy mərasimi”, Qasımzadə Əsmər Rövşən qızı “Azərbaycan folkloru və xalça sənəti” adlı mövzuları bu kafedradan götürmüş, onlara dos.M.M.Məmmədov, dos.K.F.İslamzadə, fil.f.d.K.K.Həsənova elmi rəhbər kimi təyin olunmuşdur.

Kafedrada 2016-cı ildə Folklor İnstitutundan əlavə rəyə gəlmiş 5 nəfərin dissertasiyasına aparıcı müəssisə kimi rəy verilmişdir.

Professor S.H.Orucova Fərəh Cabbar qızı Cəlilin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş "Türk və Skandinav eposlarının

müqayisəli tipologiyası" mövzusunda dissertasiyasına rəsmi opponent rəyi, Quluzadə Gülarə Knyaz qızının “Dil və ədəbiyyat” elmi-nəzəri jurnalında çap etdirdiyi “Azərbaycan və qırğız nağıllarında məkan və zaman formulu” məqaləsinə rəy vermişdir. Dosent Etibar Talıblı filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş Nazim Rzayevin “Azərbaycan meyxanalarının janr xüsusiyyətləri” , Şəhla Hüseynlinin “Azərbaycan folklorunda epik formulların semantik-funksional xüsusiyyətləri” mövzularında dissertasiyalarına rəsmi opponent olmuş, Möhsün Nəzərlinin “Azərbaycan torpağında” şeirlər kitabına, Hikmət Quliyevin “Müdrik qoca arxetipinin semantik strukturu və paradiqmaları” kitabına rəy vermişdir. Dosent Kəmalə İslamzadə Səfa Qarayevin «Mifoloji xaos: strukturu və poetikası» kitabının rəyçisi olmuşdur. Fil.f.d. Könül Həsənova dissertant Gülarə Quluzadənin “Azərbaycan və qırğız nağıllarının toplanma, nəşr və öyrənilmə tarixi” məqaləsinə rəy vermişdir.

## 13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ İXTİSASLAŞDIRILMIŞ ŞURALARIN FƏALİYYƏTİ

Kafedranın müdiri prof. S.H.Orucova AMEA-nın Folklor İnstitutunun Müdafiə Şurasının, kafedra müdiri olaraq isə fakültə Elmi Şurasının üzvüdür. N.Q.Xəlilov dekanın elmi işlər üzrə müavini, dosent M.M.Məmmədov isə fakültə Elmi Şurasının elmi katibi olaraq həmin Elmi Şuranın üzvləridir. Kafedranın dosenti İslamzadə Kəmalə Faiq qızı Nizami adına Ədəbiyyat Muzeyinin Elmi Şurasının üzvüdür. Fil.f.d. K.K.Həsənova AMEA-nın Folklor İnstitutunun Seminar Şurasının üzvüdür.

## 14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ-TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI)

Kafedranın magistr və bakalavr pillələrində oxuyan tələbələr vaxtaşırı olaraq kafedranın təşkil etdiyi seminarlarda müxtəlif mövzularla çıxış edir, hər il çap olunan «Azərbaycan filologiyasının aktual problemləri» adlı məcmuədə və digər

jurnallarda öz elmi məqalələrini çap etdirirlər. Kafedra üzrə müdafiə edən və təhsillərinə davam edən magistrantların oxuyan tələbələrin aşağıda qeyd olunan məqalələri çap edilmişdir:

**Rüstəmova Jalə:**

1. Hənəfi Zeynallı Azərbaycan nağıllarının toplayıcısı kimi. Gənc tədqiqatçıların IV Beynəlxalq elmi konfransı. Bakı, Qafqaz Univeristeti, 2016. Səh.1107-1108
2. “Kitabi-Dədə Qorqud” tarixi tolerantlıq ənənəsi kimi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Filologiyanın Aktual Problemləri” mövzusunda Respublika elmi-nəzəri konfransın materialları. Bakı, Bakı Univeristeti nəşriyyatı, 2016. Səh.208-210
3. Multikulturalizm və islami dəyərlər. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Qloballaşan dünya və Azərbaycan” I Respublika tələbə elmi konfransının materialları. Bakı, Mütərcim, 2016. Səh.178-180
4. Multikultural dəyərlərin bədii ədəbiyyatda təcəssümü. “Azərbaycanda multikulturalizm yaşam tərzidir” mövzusunda respublika konfransının materialları. Bakı, VM REKLAM, 2016. Səh.106-110.
5. Zamanın süzgəcindən keçən nağıllarımız. İnternational journal of young researchers. Bakı,2016, səh.48-52
6. “Kitabi-Dədə Qorqud”da və Hüseyn Cavidin “Peyğəmbər” dramında Allah obrazı. “Hüseyn Cavid və müasir gənclik” (Hüseyn Cavid-134) Respublika elmi konfransın materialları. Bakı, 2016. Səh.106-109.
7. “Kitabi-Dədə Qorqud”un əlyazmaları. “Azərbaycan əlyazmaları dünya kitabxanalarında” I Beynəlxalq elmi-nəzəri konfrasın materialları. Bakı, Elm və Təhsil, 2016. Səh.119-122.

**Quliyeva Gözəl:**

3. Xızır Peyğəmbər- Folklorumuzun sirr mənbəyi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Filologiyanın Aktual Problemləri” mövzusunda Respublika elmi-nəzəri konfransın materialları. Bakı, Bakı Univeristeti nəşriyyatı, 2016. Səh.192-194
4. Azərbaycan folklor ədəbiyyatında rəqəmlərin sakrallığı. Qafqaz Universitetində “Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93- ci ildönümünə həsr olunmuş “Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı”. Bakı, 29-30 aprel, səh.1065-1067
5. Azərbaycanda multikulturalizmin izləri. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Qloballaşan dünya və Azərbaycan” I Respublika tələbə elmi konfransının materialları. Bakı, Mütərcim, 2016. Səh.168-169

**Həsənli Arzu:**

1. Tayfaya kənardan gətirilən qadının statusu haqqında (Türk xalqlarının epos yaradıcılığı əsasında). Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Filologiyanın Aktual Problemləri” mövzusunda Respublika elmi-nəzəri konfransın materialları. Bakı, Bakı Univeristeti nəşriyyatı, 2016. Səh.194-196
2. “Əsli və Kərəm” dastanında multikulturalizm və tolerantlığın təcəssümü. “Azərbaycanda multikulturalizm yaşam tərzidir” mövzusunda respublika konfransının materialları. Bakı, VM REKLAM, 2016. Səh.101-105
3. Hüseyn Cavid lirikasında xalq şeir ənənəsi. “Hüseyn Cavid və müasir gənclik” (Hüseyn Cavid-134) Respublika elmi konfransın materialları. Bakı, 2016. Səh.114-117

**15. 2016-CI İLDƏ HANSI AVADANLIQLARININ ALINMASINA EHTİYAC DUYULUR (ADI, ALINACAQ AVADANLIQLARININ SAYI, TƏXMİNİ QİYMƏTİ, manatla):**

Kafedrada tədrisin və elmi–tədqiqat işlərinin yüksək səviyyədə keçirilməsini təşkil etmək üçün kafedranın aşağıdakı texniki avadanlıqla təhcizatına ehtiyac vardır: skaner, slaydların təqdimatı üçün proyektor və notebooka ciddi ehtiyac vardır.

**16. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR**

Kafedrada aparılan elmi işlər folklorşünaslığımızı zənginləşdirir. Burada əldə edilən nəticələrin yekunları dərslik, dərs vəsaiti və Elmlər Akademiyasının nəşr etdiyi «Azərbaycan ədəbiyyatı tarixi» çoxcildliklərində istifadə oluna bilər. Bundan əlavə, kafedra «Azərbaycan folklorşünaslığı tarixi» monoqrafiyasını və «Azərbaycan dastanları», "Azərbaycan folkloru" (rus bölməsi üçün) adlı dərs vəsaitlərini nəşrə hazırlamağı planlaşdırır. Tədqiqat işinin materiallarından gələcəkdə bu əsərlərin nəşrə olunması prosesində istifadə edilməsi nəzərdə tutulmuşdur.

Kafedra təklif edir ki, elmi tədqiqat işləri əsasında hər il ayrıca nəşrlər hazırlansın və tələbələr onlardan əlavə dərs vəsaiti kimi istifadə etmək imkanına yiyələnsinlər.

**Azərbaycan şifahi xalq ədəbiyyatı**
**kafedrasının müdiri: ___________ prof.S.H.Orucova**